UOT 81`36

**AYGÜL EYYUBOVA***

# İNVERSİYA VƏ MÜRƏKKƏB SİNTAKTİK BÜTÖV (MSB)

*Məqalədə müxtəlifsistemli dillərin materialları üzrə inversiyalaşmış MSB strukturu, onun həcmi, semantik aspektləri təhlil olunur. Mürəkkəb sintaktik bütövü yaradan invertarlaşmış inversiyalı cümlələrin rolu əsaslandırılır.*

*İnversiyanın MSB-dəki funksiyaları aktual üzvləri əlavə olaraq aksentləşdirilməsi ilə bağlıdır, aksentləşdirmə polipredikativ münasibətləri qurur, söyləm səviyyəsində yuxarı fraza vahidlərini bir-birilə əlaqələndirir. Sintaktik (qrammatik) inversiya ingilis dilində söz yerdəyişməsinin bütöv sistem modelidir. Bu sıra normal sıra ilə dominantlıq təşkil edir.*

*Müəyyənləşir ki, söz sırası cümlədə və MSB-də sözün yerləşdiyi mövqeyi və ya sintaktik qrupları təyin edir. İngilis dilində müasir Azərbaycan dilindən fərqli düz və əks sıra yaxud invertarlaşmış söz sırası mövcuddur. Bu sıra dilin morfoloji quruluşu ilə əlaqədar olaraq, MSB-də də mühüm semantik, struktur-təşkil funksiyalarını yerinə yetirir. İnversiya hadisəsi öz-özlüyündə standart (ənənəvi) sırasının dəyişməsi ilə xarakterizə olunur. Bu məqamda müəyyən bir üzv mətn komponentlərinin arasına girir və bunun nəticəsində onların daha möhkəm bağlamasını şərtləndirir.*

**Açar sözlər:** *Mətn, sintaktik bütöv, mürəkkəb sintaktik bütöv, inversiya hadisəsi, mərkəzi cümlə.*

Məqaləni yazmaqdan əsas məqsəd ingilis və Azərbaycan dillərində mürəkkəb sintaktik bütöv (MSB) və inversiya hadisəsinin qarşılıqlı əlaqə və münasibətinin öyrənilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün bir sıra məsələlərə aydınlıq gətirmək lazım bilinmişdir. Bu məsələnin tədqiqinin məqsədəmüvafiqliyini və elmi-nəzəri, praktik dəyərini müəyyən etmək; MSB-ün strukur tərkibini, ünsiyyətdə mövqeyini, komponentlərarası əlaqəlilik və semantik bitkinliyi, həmçinin də MSB-nin yaranmasında inversiyanın rolunu dəqiqləşdirmək. Mürəkkəb sintaktik bütöv MSB hə dil, həm də nitq faktıdır. Onun hüdudları genişdir.

Mürəkkəb sintaktik bütöv (MSB) nədir? Mətnin struktur-semantik vahidi kimi MSB qeyd olunur. Mürəkkəb sintaktik bütövün (MSB) spesifik struktur və semantik əlamətləri mövcuddur. Müxtəlif sistemə malik dillərdə mürəkkəb sintaktik bütöv mətnin struktur-semantik vahidi kimi çıxış edir. MSB-ün formalaşmasında, əsasən, bir sıra formal əlaqə vasitələri çıxış edirlər: prosodik elementlər (intonasiya, vurğu və s.), morfoloji təkrarlar (cins, zaman, hal kateqoriyası əlamətlərinin təkrarı); leksik təkrarlar (sözlərin tam, natamam, yəni müxtəlif qrammatik formalarda olan təkrarı və sıfır təkrar); sintaktik təkrarlar (söz sırasının tam və natamam təkrarı, xiazm və s.); qrammatik vasitələr (bağlayıcılar, qüvvətləndirici ədatlar, deyktik elementlər, müxtəlif tipli əvəzliklər, zərflər və s.) (1, s. 12).

Rus dilçiliyində N.S.Pospelov 40-cı illərdə MSB və onun söz sırası ilə bağlı əsas struktur xüsusiyyətləri haqqında müəyyən fikirlər söyləmişdir (2, s. 54).

L.Q.Vedenina müasir fransız dilinin materialları əsasında MSB komponentləri arasındakı inversiyalaşmış semantik-sintaktik münasibətlərə toxunmuşdur (3, s. 63).

Hind-Avropa dilçiliyində MSB inversiyalaşmış mürəkkəb cümlənin ümumi və fərqli xüsusiyyətləri də müəyyən qədər öyrənilmişdir (4, s. 109).

Q.Solqanik mürəkkəb sintaktk bütövün cümlələrində baş verən inversiyanı sintaktik-üslubi hal sayır (5, s. 68).

Mürəkkəb sintaktik bütöv bəzən "sintaktik bütöv" termini əvəzinə işlədilir. Şübhəsiz, burada "mürəkkəb" sözü artıqdır. Çünki "bütöv" sözündə mürəkkəblik anlayışı vardır və "sintaktik bütöv" termini "söz birləşməsi", "cümlə", "mürəkkəb cümlə" terminlərinin heç biri ilə qarışmadan bunların hamısından fərqli – yuxarı sintaktik quruluşu heç bir dolaşıqlığa səbəb olmadan səlis şəkildə ifadə

edir. MSB bir neçə sintaktik bütövün birliyindən ibarətdir.Əlaqəli nitqin (mətnin) cümlədən böyük elə bir bitkin mənalı parçasıdır ki, onu bir daha bitkin mənalı mətnlərə ayırmaq olmaz. Bu cəhətdən sintaktik bütövlər morfemləri xatırladır. Morfem dilin bir daha mənalı vahidlərə parçalana bilməyən ən kiçik mənalı vahidləri olduğu kimi sintaktik bütövlər də mətnin bir daha bitkin mənalı mətnlərə bölünə bilməyən ən kiçik mənalı parçasıdır. Akademik Kamal Abdullayevin başçılığı altında çap olunmuş irihəcmli monoqrafiyanın (6). «Giriş» hissədə K.Abdullayev mürəkkəb sintaktik bütövün tədqiqini əsaslandırır, dilçiliyin müstəqil sahəsi hesab edir, həmin məsələnin tədqiqi aspektlərini (dil və nitq aspekti; vahidlərin dilə və nitqə aidliyi), dil kəsiyində MSB, sintaktik vahidlər və MSB məsələlərinə aydınlıq gətirir. K.Abdullayev əlaqəli nitqin həqiqi sintaktik vahidinin sadə və mürəkkəb cümlələr deyil, MSB olduğunu Azərbaycan dilçiliyində ilk dəfə göstərmiş, mürəkkəb sintaktik bütövlə abzasın sərhədlərini ayırmış, onları sintaktik və qrafik xüsusiyyətlərinə görə fərqləndirmişdir. K.Abdullayev ayrıca çap etdirdiyi məqaləsində Azərbaycan dilində MSB-ni semantik-qrammatik təhlilin obyekti saymaqda düzgün mövqe tutmuşdur (7, s. 10-19). O, MSB-ün sərhədlərini ilk dəfə müəyyənləşdirməyə təşəbbüs göstərənlərdəndir. K.Abdullayevin əsərlərində MSB-ün sərhədlərinin müəyyənləşdirilməsində izomorf və kommunikativ prinsiplər tədbiq olunmuşdur.

Amma Azərbaycan dilçiliyində bundan əvvəl, R.Xəlilov MSB-ün strukturunda mərkəzi (nüvə) cümləni ayıraraq, bütün sonrakı təhlili məhz onun üzərində qurmağı məsləhət bilmişdir: "Mərkəzi cümlənin izahına xidmət edən cümlə və ya cümlələr qrupunun sərhədləri mürəkkəb bütövün sərhədləri ilə üst-üstə düşür"; "Əşyanın çıxış və ya başlanğıc nöqtəsini bildirən və çıxışlıq halda duran yer zərfliyi əvvəl, hərəkətin istiqamət və yaxud qurtaracaq nöqtəsini bildirən və yönlük halda duran yer zərfliyi isə mürəkkəb sintaktik bütöv içərisində sonra gəlir" (8, s. 67; 171).

"Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər" adlı monoqrafiyada "Türkologiyada MSB-nin öyrənilməsi tarixi" (N.Novruzova) də nəzərdən keçirilir. Müəllif türkoloji dilçilikdə MSB haqqında yazıları ilkin tədqiqatları, bundan savayı, tatar, türk, Azərbaycan dilçiliklərində MSB-nin öyrənilməsi problemlərini qaldırır, türk epos mətnləri əsasında bu məsələnin tədqiqini izləyir, sonda isə MSB-in dillərin sonrakı mərhələlərindəki tədqiqinin yeni istiqamətlərini müəyyənləşdirir (6, s. 61-84).

Ə.Cavadov hələ 70-ci illərdə mətn və cümlədə sözlərin sırası məsələlərini namizədlik dissertasiyası kimi qələmə almışdır (9; 10).

Ə.Xəlilov Azərbaycan dilçiliyində sintakti.k bütövlərin yavranmasında morfoloji vasitələrin rolundan bəhs edən məqalə ilə çıxış etmişdir (11).

İngilis və Azərbaycan dillərində inversiyanın mətnlə, MSB-lə əlaqəli araşdırılması nəzəri dilçiliyin aktual problemlərindən hesab edilir. Həmin məsələnin həlli çox vacibdir. Linqvistika elmində bu sahəyə dair araşdırma işləri olsa da, inversiya və MSB-lərin xüsusi və ümumi dilçilikdə əsas tədqiqat obyekti ola bilməmişdir.

MSB-də əlaqə vasitəsi rolunu inversiya hadisəsi oynayır. Əlaqə vasitələri müxtəlif mərhələlər üzrə özünü göstərir:

MSB-ün başlanğıc mərhələsində inversiya: Xaçbulaba rəisin dəyə qarovulu Qədir təyin olunmuşdu. Ezamiyyət kağızını ona verəndə Bəbir bəy bir quran söz dedi. Bunları dürüst öyrənib yadda saxlamasa da, Qədir mətləbi başa düşürdü. Bəyin sözündən bu çıxırdı ki, qulluğun üçtündə möhkəm dur, mənim üzümü pristavın yanında qara eləmə, bu yaxşılığı da həmişə yadında saxla!

MSB-ün orta mərhələsində inversiya: Şənbə günü Qədir dəyədə olmalı idi. Bu ayrılığa

Qumru razı ola bilmirdi. "Ya, deyirdi, burax, boynundan at, ya da ki, məni də apar!. Ayrı dura bilmərəm".

Qumrunun halını Qədir yaxşı düşünürdü. Kənddə onun kimsəsi yox idi. Yaman gündə qapısını açıb, dərdini soruşan yalnız Məşədi İslamgil idi. Məşədi İslamın da işi Qədir kimi düz gətirmirdi, güclə dolanır, gah bu kəndə, gah o kəndə kərpic kəsməyə, əkinə-biçinə gedirdi. İşdən baş açıb dostlar görüşə də bilmirdilər. Qədir bir fikirləşdi ki: "Özümlə aparım Qumrunu!."

Çox çətin olacaqdı bu. Külfəti dağa çatdırmaq üçün çoxlu pul lazım idi. Dağda isə, kim bilir, yer, ev tapmaq mümkün olacaqdı ya yox. Bəyin yanına Qədir məsləhətə getdi. Evi aparmaq fikrini eşidən kimi bəy özünü itirdi. Nədənsə başını tovladı, rəngi qaçdı, dili dolaşdı. Möhrü yerə atıb ayağa durdu. Qədirə qoşulub gəldi:

MSB-ün son mərhələsində inversiya: – Kim deyir? Bu nə fikirdi? Elə iş olarmı? Ev nədir, zad nədir! Bu nəs tərəfindən qulluğa gedirsən sən. Evin burada qalmasa kim qulluq verər sənə. Bir dəqiqə inanarlarmı? Qaldı ki, hara gedirsən? Dağda sən özünə yatmaq yeri tapsan, qoçaqsan. Evi dəbərtmək nə üçün? Yox! Boşla, boşla. – Ərkyana bir ahənglə Bəbir bəy üzünü qadına tərəf tutub deyirdi: – Qumru bacı, bunu ayrı yerdə deyib camaatı özünüzə güldürməyin! Razı salıb güc ilə qulluq almışıq. Pristavın qulağına çatsa ki, siz köçürsüz, daha yaxına qoymaz Qədiri! Sonra Qədirə sarı baxıb, bəy sözünün təsirini yoxlamaq istəyirdi:

– Bildin nə deyirəm, Qədir!

– Bəli, bildim.

– Başa düşdün də?

– Başı düşdüm, bəy! (Mir Cəlal)

Həmin üç hissə bitkin mənalı mikromətn parçasıdır. Bu parçalar eyni fikrin ətrafında yaranmışdır, mikrotema silsiləsi, ardıcıllığı əmələ gətirmişdir. Hər üç hissənin arasında əlaqə möhkəmdir, tor şəbəkəni xatırladır. Həmin əlaqəni yazıçı "Ayrılıq" adandırır.

MSB-in ümumi məlumat, inkişaf və son (nəticə) mərhələləri inversiyalaşmış cümlələrin iştirakı ilə reallaşır. Göründüyü kimi, bu bədii mətndə söz sırası üslubla bağlı orlaraq dəyişib, buna səbəb məntiqi vurğudur (12, s. 10).

"Ayrılıq" mikromətnində hər üç durumda inversiyanın yaranması Bəbir bəy üçün vacib bir məsələnin məna baxımdan daha qabarıq şəkildə nəzərə çatdırılması ilə əlaqədardır. Ona görə ki, adi sırada bu gərginliyik öz ifadəsini tapa bilməz. Müəyyən söz, ifadə tələffüz etibarilə fərqlənməlidir. Fikri müxtəlif məna çalarlıqlarında təzahür etdirmək üçün mətn daxilindəki bu və ya digər sözün yerini dəyişmək və xüsusi vurğu ilə təqdim etmək tələb kimi ortaya çıxır. Başqa sözlə, inversiyaya məruz qalmış söz və ifadənin xüsusi tonu, tonallığı olur. Azərbaycan dilinin tələbinə müvafiq olaraq isə vurğulu söz də çox zaman xəbərin yanında, xəbərdən öncə yerləşir. Bu vəziyyət üslubi hal yaradır. Yuxarıdakı mətndə üslub baxımdan söz sırası daha geniş imkanları üzə çıxarmışdır. Üslubiyyat kitablarında göstərildiyi kimi, həmin qanun üslubi söz sırasının ancaq bir qolunu təşkil edir. Azərbaycan dilində söz sırasının üslubi işləmə yerləri olduqca zəngin, müxtəlif və rəngarəngdir. Üslub nöqteyi-nəzərdən söz sırası aşağıdakı vasitələrlə müəyyənləşdirilir:

1. Hər hansı bir cümlə mətndə, nitq prosesi, yaxud kontekst daxilində başqa cümlələrlə əlaqəli şəkildə götürülür.

2. Məntiqi vurğuya fikir verilir.

3.Üslubla əlaqədar olaraq müəllifin hekayə nitqini dialoqdan, tiplərin dilindən ayırmaq lazımdır. Müəllifin nitqinin özünəməxsus xüsusiyyəti olduğu kimi, dialoq nitqinin də öz spesifik səciyyəsi vardır. Çünki müəllifin nitqindən fərqli olaraq dialoq nitqində müəyyən məna çalarlığı, ekspressivlik, hiss-həyəcan, güclü surətdə nəzərə çarpdırılma və s. vardır.

4. Söz sırası əsərin növü (janrı) ilə də bağlıdır (13, s. 285).

Söz sırası hadisəsinin təhlili cümlə çərçivəsindən daha geniş çərçivəyə müraciət olunmasını tələb edir. Belə ki, bu problemi daha dərindən anlamaq üçün onun mətn kəsiyində işlənən məqamına müəyyən kontekstdə baxmaq lazımdır. Söz sırasının mətnyaradıcı funksiyası məhz mətnin səbəb-nəticə əsasında kommunikativ açılışının ifadəsində nəzərə çarpır.

Mətnin bütövləşməsində söz sırasının təkrarının, yəni sintaktik paralelizmin rolu vardır. K.Abdullayev bu xüsusda yazır: "Mətndə əlaqə vasitəsi rolunu oynayan inversiya söz sırasının elə dəyişməsini həyata keçirir ki, burada müəyyən ümumi üzv bütün mətnin əvvəlində deyil, mətn komponentlərinin arasında işlənir. Burada əsas məqsəd də odur ki, ümumi üzvün orta mövqedə işlənməsi ilə, yəni, həm özündən əvvəlki, həm də özündən sonrakı komponentlərə aid olmamaları ilə bu komponentlərin bir-birinə daha möhkəm bağlanması əldə edilsin" (14, s. 239). İngilis dilinin mətnlərinə xas söz sırası bəzən kəskin dəyişir, bu mətndə tematik dinamikaya, inkişafa birbaşa öz təsirini göstərir. Ənənəvi söz sırasının saxlanıla bilməməsi nəticəsində əmələ gələn inversiya mətnin həm praqmatik effektivliyini yüksəldir, həm də mətnin başlıca süjet xəttini inkişaf etdirməyə imkan verir. İnversiyanın başlıca prinsipi bundan ibarətdir ki, onun ikinci komponenti struktur cəhətdən birinci komponentə münasibətdə inversiyaya uğrasın, eləcə də mətnin komponentləri məzmun planında bir-biri ilə xiazmatik münasibətdə ola bilər. MSB və onun formalaşmasında inversiyanın rolu inkaredilməzdir. İfadəyə bəzi sözlərin təsir gücünü çoxaltmaqdan ötrü, cümlənin ənənəvi (standart) qanunlarının tələb etdiyi kimi yox, digər şəkildə işlətməyə inversiya (yerdəyişmə) deyilir. Söz sırası mətnin komponentləri arasında məna və struktur əlaqəsi yaradan vasitələrdən biridir. Söz sırası ilə bağlı mətn yaradan vasitələr içərisində inversiya, sintaktik paralelizm, əksinə söz sırası (xiazm) mühüm yer tutur.

Mətndə müəyyən üzvün öz yerini, sırasını dəyişməsi inversirsiya adlanır. İnversiya vasitəsilə mətnin müəyyən komponentləri onunla (inversiya olunmuş sözlə) əlaqəyə girir. Beləliklə, inversiya vasitəsilə mətnin komponentləri bir-biri ilə bağlanır. Məs.: Adı Leyladır onun. Həyatı bəxtəvərliklə, qəlbi istəklərlə doludur. Dodaqlarındakı gülüşlə gözlərindəki sevinc əkiz yaranmışdır. Ömründən keçən on səkkiz ildə ata-ana həmişə bu yeganə qızcığazın nazını çəkmiş, üstündə əsmiş, onu ehtiyacın üzünü görməyə, xiffətin nə olduğunu bilməyə qoymamışlar (S.Qədirzadə). Bu mətndə onun adı mürəkkəb mübtədasında sözlər yerini dəyişmiş sözlər arasına Leyladır sözü daxil olmuşdur. Nəticədə onun adı Leyladır strukturu adı Leyladır onun formasına düşmüşdür. Onun sözünün inversiyası imkan yaratmışdır ki, ikinci komponent (onun) dodaqlarındakı.. və üçüncü komponent (onun) ömründən…birinci komponentlə (adı Leyladır onun) məna və struktur əlaqəsi yaratmaqla mətn formalaşdıra bilsin. Mətn yaradan əksinə söz sırası (xiazm) onun bağlıdır ki, ikinci komponent birinci komponentlə müqayisədə inversiyaya uğrayır. Məs.: Bu mənim əziz və qədim dostum Mola Nəsrəddin əmidir ki, hətta bunun o məzəli jurnalını neçə dəfələrlə gülə-gülə oxumusunuz və dəfələrlə oxuya-oxuya gülmüsünüz (C.Məmmədquluzadə).

Mətndə birinci hissə (gülə-gülə oxumusunuz) və ikinci hissə (oxuya-oxuya gülmüsünüz) yerdəyişməyə uğramışdır. Ancaq bu yerdəyişmə bir vasitə kimi mətnin əmələ gəlməsinə xidmət etmişdir (15, s. 388 (428 s.).

MSB məzmun etibarı ilə tam bir qurumdur. MSB dil işarələrinin özünəməxsus sırasından ibarət bir strukturdur. "MSB kommunikativ vahid kimi müəyyən informasiya daşıyıcısıdır və həmin informasiyanı ötürərkən müxtəlif formal və semantik vasitələrdən istifadə olunur" (16, s. 3).

Mətnin, inversiyalaşmış MSB-lərin strukturu, həcmi və sərhədlərin bəzi məqamları tədqiqatlarda izah olunmuşdur.

N.Pospelov yazır ki, "rabitəli nitqin sintaktik vahidi sadə və mürəkkəb cümlə deyil, məhz rabitəli nitq kontekstindən çıxarılarkən öz sintaktik bitkinliyini və müstəqilliyini qoruyub saxlayan MSB-dir" (2, s. 68) Müəllifin başqa bir fikrinə görə, MSB çox "qapalı sintaktik struktur"a sahibdir və bu əlamət bu strukturu daim seçərək fərqləndirir. Mürəkkəb cümlədən fərqli, MSB-nin quruluşundakı yanaşı gələn sintaktik vahidlərin fikrin rəvan inkişafını yox, sıçrayışlarını inikas etdirdikdə həmin cümlələr arasında var olan sintaktik münasibətlərin kəsilən, müntəzəm olmayan səciyyəsi ilə təhlil olunur" (17, s. 53).

Mətn struktur-semantik aspektdə başlanğıc və son həmhüdüd nöqtələrinə sahib olan sintaktik vahiddir. K.M.Abdullayev MSB-lərlə abzasları fərqləndirir və yazır ki, "abzas və MSB bir-biri ilə əlaqəli olsalar da, müxtəlif səviyyə və sistemlərə aid olduqları üçün onları eyniləşdirmək olmaz; SMB özündə bir neçə abzası birləşdirə bildiyi kimi, bir abzas da bir neçə MSB-ni əhatə edə bilir" (14, s. 189).

Mətnin tərkib hissələri struktur-semantik cəhətdən iki cür əlaqə ilə birləşir. Bunlardan biri formal əlaqə adlanır. Həmin əlaqə təkrarlar, bağlayıcılar və s. ilə formalaşır. Digər əlaqə məzmun əlaqəsi və ya semantk əlaqədir. Buraya ardıcıllıq əlaqəsi daxil edilir. Tədqiqatçıların əsərlərinə əsasən frazafövqü vahidlərdə qrammatik əlaqənin bir sıra növlərindən bəhs olunur. Buraya paralel, zəncirvari, birləşdirici və situativ əlaqə tipləri aid edilir (18). Məlumdur ki, mətn struktur-semantik planda 3 hissədən ibarət olur: 1) başlanğıc, 2) orta, 3) son. İnversiyanın mövcud olduğu yerin başlanğıc, orta və son olması MSB-in daxilində paylanan ünsürlərinin məna və məzmununu əsla dəyişə bilmir. Məs.:

*Had* I more money, I would have boujht a much better present. *Should you need* anything, feel free to tell me.

Mürəkkəb sintaktik bütövləri təşkil edən inversiya olunmuş mürəkkəb cümlələr *hardly, scarcely, no sooner, nothing, not only* sözləri ilə başlanır. Məs.: Hardly *had crossed* the threshold, when a huge dog jumped on me and started licking my face. Never *had I heard* such a terrible singing.

MSB-də inversiya ilə *as, than* bağlayıcılarından sonra qarşılaşmaq olur. Məs.: He is very active, as are most boys of his age. Country people know nature better than do city dwellers.

MSB-də inversiya yer zərfi ilə bağlı özünü göstərir: On the tree sat unusual bird. Directly in front of them stood a beautiful castle. Not until I see it with my own eyes will I believe him. Only in the last has he started to feel better. Only after the phone did she calm down. Never have I seen such a beautiful child. At no circumstances are parents allowed to leave their children alone.

Sintaktik (qrammatik) inversiya ingilis dilində söz yerdəyişməsinin bütöv sistem modelidir. Bu sıra normal sıra ilə dominantlıq təşkil edir. Tamamlıq-determinantların MSB-də yerləşmə mövqeyi bu baxımdan diqqəti cəlb edən cəhətlərdən biridir. Məs.: *Hallo! Here come two lovers (K.Mansfield. The Lady s Mail._M., 1980); Among them stood tulips (R.Aldington. Death ov a Hero.- Moscovv, 1950)*

K.Abdullayev qeyd olunan hissələr haqqında namizədlik dissertasiyasında belə səciyyələndirir: "Mətnin başlanğıc hissəsində mövzu açılır, bu açılışda həmin hissəyə aid olan sintaktik vahidlərdə əksər vəziyyətdə əvəzliklər və ya digər qrammatik vasitələrdən istifadə olunur, yəni onların varlığı hiss edilmir. Mətnin orta hissəsi başlanğıcda verilənlərin ümumi mənasının açılmasını təmin edir, son hissə isə mövzunun konkretləşdiyi hissə sayılır. Bu hissədə məna ümumiləşdirilərək yekunlaşır. Hər iki halda mətnin orta hissəsi onun başlıca informasiya daşıyıcısı

olur" (19, s. 38). Azərbaycan dili sintetik quruluşlu dillərdəndir. Bu dildə cümlə söz sırası və intonasiya ilə yaranır. Mətni təşkil edən cümlənin bu və ya digər üzvünün aktuallaşdırılması ilə əlaqədar söz sırası dəyişdirilir, yəni inversiya edilir. İnversiya zamanı məntiqi vurğu cümlədə xəbərdən əvvəlki üzvün üzərinə düşür (20, s. 10).

"Tam leksik təkrarlanma da cümlənin müəyyən üzvünün aktuallaşdırılması vasitəsi kimi çıxış edir. İnversiya və tam leksik təkrar birlikdə aktualizator rolunu oynaya bilər" (21, s. 10 (21 s.). İngilis dili analitik struktura malikdir. Bu dildə söz sırası (inversiya) köməkçi sözlər, intonasiya, əvəzliklər, artikllar və başqa vasitələrin köməyilə gerçəkləşir. Söz sırasının dəyişkənliyi İngilis dilində inversiya hadisəsinin aktuallaşdırıcı vasitə kimi imkanlarını xeyli dərəcədə lokallaşdırmışdır. Məs.: There is some noise outside. There are several mistakes in your translation.

Mətnin struktur-semantik təbəqəsində əvəzliklərin rolu böyükdür. Bir sıra müxtəlif sistemli dillərdə işarə əvəzlikləri mətndə çox mühüm konstruktiv yük daşıya bilir; onlar mətnqurucu vəzifəni yerinə yetirir, mətnin tərkib hissələri arasında anaforik və kataforik münasibət qurur. Mətnin tərkib hissələrinin təkrar hesabına əlaqələnməsində, əsasən, o, bu işarə vəzliklərindən istifadə edilir. Məhz həmin vahidlər mətnin başlıca semantikasının açılmasına yardım göstərir. Məsələn, ingilis dilində aşağıdakı mətnə nəzər salaq: She rang Michael up and made an appointment with him at the theatre. Michael liked Dolly as little as she liked him… (Maugham)= O, Maykla zəng vurub onunla teatrda görüş təyin etdi. Dolli Mayklı nə qədər xoşlamırdısa, Maykl da Dollini o qədər xoşlamırdı.

Mətnin struktur-semantik təbəqəsi söz birləşməsinin təkrarından ibarət olur: They don't want *clever men; clever men* have ideas, and ideas cause trouble…(Maugham)= Onlar *ağıllı insanları* istəmirlər; *ağıllı insanların* öz ideyaları olur, ideyalar isə problemlər törədir.

İnversiya MSB-in müxtəlif mövqelərində müşahidə olunur. Məsələn, vasitəsiz nitqdən sonra: "How are you?" said Winnie-the-Pooh. Eeyore shook his head from side to side. "Not very how", he said.

Söz sırasının dəyişilməsi ingilis dilində sintaktik münasibətin də MSB-də dəyişməsinə səbəb olur: When a man wants to kill a tiger he calls it sport; when a tiger wants to kil lit is man it is ferocity.

Beləliklə, tədqiqatdan irəli gələn elmi qənaətlər belədir.

MSB mətn vahididir. MSV müxtəlif komponentlərdən ibarətdir.

Əks sıra yaxud inversiyanın linqvistik mahiyyəti MSB çərçivəsində də aydınlaşır. Üslubi inversiyanın əsas tipləri bu böyük sintaktik vahid modelində də müəyyənləşir. İngilis dilində olduğu kimi, müasir Azərbaycan dilində də inversiya MSB-də ifadələrin emosionallığını yüksəldən vasitə kimi özünü göstərir. İnversiya MSB-dəki cümlələrin fikir-məna və üslubi rənginə təsir göstərir. İnversiya MSB-in komponentləri arasında mətnyaradıcı amil kimi də çıxış edir.

Tədqiqat materialı göstərir ki, söz sırası cümlədə və MSB-də sözün yerləşdiyi mövqeyi və ya sintaktik qrupları təyin edir. İngilis dilində müasir Azərbaycan dilindən fərqli düz və əks sıra yaxud invertarlaşmış söz sırası mövcuddur. Bu sıra dilin morfoloji quruluşu ilə əlaqədar olaraq, MSB-də də mühüm semantik, struktur-təşkil funksiyalarını yerinə yetirir. İngilis dili cümlələrində əsas söz sırası mübtəda-xəbər-tamamlıq modeli-sxemi üzərində qurulur. Bu "məşhur" sıra adlanır. Mətnqurucu amil kimi bir çox hallarda xüsusi söz sırası, ənənəvilikdən kənar əks sıra özünü göstərir. İnversiya hadisəsi öz-özlüyündə standart (ənənəvi) sırasının dəyişməsi ilə xarakterizə olunur. Bu məqamda müəyyən bir üzv mətn komponentlərinin arasına girir və bunun nəticəsində onların daha möhkəm bağlamasını şərtləndirir.

## ƏDƏBİYYAT

1. Məmmədov A.Y. Mətn yaradılmasında formal əlaqə vasitələri sistemi. Fil.elm.dok.dis. avtoreferatı, Bakı, 2003.
2. Поспелов Н.С. Сложное синтаксическое целое и основные особенноти его структуры // Доклады и сообщения Института русского языка. II выпуск, М.-Л., 1948.
3. Ведекнина Л.Г. О семантико-синтаксических отношениях между компонентами сложного синтаксическгого целого (на материале современного французского языка) // Проблемы синтаксической семантики. М., 1976.
4. Рогожникова Р.П. Сложное целое и структура сложного предложения // Теоретические проблемы синтаскиса индоевропейских языков. Л., 1975.
5. Солганик Г.Я. Синтаксическая стилистика (сложное синтаксическое целое). М.: Высшая школа, 1975.
6. Abdullayev K.M. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012, 608 s.
7. Абдуллаев К.М. Сложное синтаксическое целое объект семантико-грамматического анализа // Советская тюркология, 1978, №5
8. Xəlilov R. Sadə cümlədə söz sırası. Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı, 1968.
9. Cavadov Ə.M. Mətn və cümlədə sözlərin sırası // Azərbaycan SSR EA-nın Xəbərləri. Ədəbiyyat, dil və incəsənət seriyası. Bakı, 1973, №4.
10. Cavadov Ə.M. Mətn və cümlədə sözlərin sırası. Filol. elm. nam. dis., Bakı, 1975.
11. Xəlilov Ə.Ə. Sintaktik bütövlərin əmələ gəlməsində morfoloji elementlərin rolu.- Azərbaycan morfologiyasının aktual məsələləri. Bakı, 1987.
12. Эдирханова Т.С. Порядок слов в простом предложении в узбекском языке. М., 1957.
13. Azərbaycan bədii dilinin üslubiyatı (oçerklər). Bakı: Elm, 1970.
14. Abdullayev K.M. Azərbaycan dili sintaksinin nəzəri problemləri. Bakı: Maarif, 1998.
15. Xəlilov B. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Adiloğlu, 2017
16. Sonaxanım Sadiq. İngilis və Azərbaycan dillərində mürəkkəb sintaktik bütövü formalaşdıran leksik və qrammatik vasitələr. Avtoreferat, Bakı, 2011.
17. Поспелов Н.С. развитие синтаксиса современного русского языка // Сборник статей. М.: Наука, 1966.
18. Турмачева Н.А. О типах формальных и логических связей в сверхфазовом единстве. Автореф.дисс….. канд.филол.наук. М., 1973.
19. Абдуллаев К.М. Синтаксический паралеллизм (на материале огузского памятника «Книга моего Деда Коркута»). Автореф.дисс…..канд. филол. наук. М., 1973.
20. Cavadov Ə.M. Müasir Azərbaycan dilində sintaktik vahidlərin sırası. Bakı: Elm, 1977.
21. Hacıyeva K.B. Leksik təkrarlar mürəkkəb sintaktik bütövü yaradan faktor kimi (Azərbaycan və ingilis dillərinin materialları əsasında). Filologiya elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi admaq üçün təqdim olunmuş dissertsiyanın avtoreferatı, Bakı, 2010.

***Odlar Yurdu Universitetinin doktorantı**
***e-mail: dilchilik2001@gmail.com***

**Aygul Eyyubova**

**Inversion and complex syntactic integrity (CSI)**

The article analyzes the inverted CSI structure, its volume, semantic aspects on the materials of different systems of languages. The role of inverted inversion sentences that form a complex syntactic whole is substantiated. The functions of inversion in the CSI are related to the additional accentuation of the actual members, the accentuation establishes polypredicative relations, connects the upper phrase units at the level of speech. Syntactic (grammatical) inversion is a complete system model of word placement in English. This range forms dominance together with the normal range. It is defined that the word order determines the position or syntactic groups in which the word is located in the sentence and in the CSI. In English, there is a straight and inverse line or an inverted word sequence that is different from modern Azerbaijani. Due to the morphological structure of the language, this series also performs important semantic, structural and organizational functions in the CSI. The event of inversion is characterized by a change in the standard (traditional) sequence. At this point, a certain member is placed between the components of the text and, as a result, makes them to be more tightly bound.

**Keywords:** *text, syntactic whole, complex syntactic whole, inversion event, central sentence.*

**Айгуль Эйюбова**

**Инверсия и комплексная синтаксическая целостность (КСЦ)**

В статье анализируется инвертированная структура КСЦ, ее объем, семантические аспекты на основе материалов разных систем языков. Обоснована роль обращенных инверсионных предложений, образующих сложное синтаксическое целое. Функции инверсии в КСЦ связаны с дополнительным акцентированием действительных членов, акцентуация устанавливает полипредикативные отношения, соединяет верхние фразы на речевом уровне. Синтаксическая (грамматическая) инверсия – это полная системная модель размещения слов в английском языке. Этот диапазон формирует доминирование на уровне нормального диапазона.

Определено, что порядок слов определяет положение или синтаксические группы, в которых слово находится в предложении и в КСЦ. В английском языке есть прямая и обратная линия или перевернутая последовательность слов, которая отличается от современного азербайджанского языка. Из-за морфологической структуры языка этот ряд также выполняет важные семантические, структурные и организационные функции в КСЦ. Событие инверсии характеризуется изменением стандартной (традиционной) последовательности. На этом этапе определенный элемент помещается между компонентами текста и, как следствие, делает их более тесно связанными.

**Ключевые слова:** *текст, синтаксическое целое, сложное синтаксическое целое, инверсия, центральное предложение.*

(*Filologiya elmləri doktoru, professor Akif İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant: 13.03.2020**
**Son variant: 15.06.2020**